# TƏŞKİLATLAR ÜÇÜN GRANT
## BÜDCƏSİNİ TƏRTİBİ ÜÇÜN TƏLİMAT

Aşağıdakı təlimat Sizə layihənizin BÜDCƏSİNİ hazırlamaqda kömək etməlidir. Sizin BÜDCƏ, verdiyiniz layihənizin əsaslı hissəsidir.

Xahiş olunur, BÜDCƏNİZİ tərtib edərkən, ekvivalent kimi ABŞ dollarından istifadə edin. Aşağıdaki nümunə Sizə BÜDCƏNİ tərtib etməkdə kömək edəcək, lakin bu məcburi deyil. Xahiş olunur ərizənin büdcə hissəsində aydın, Sizin layihənin müzakirəsini asanlaşdıracaq ümumi işlənən terminlərdən istifadə edəsiniz.

Yadda saxlayın ki, Sizin layihənin büdcə hissəsi maliyyə hesabatınızı təşkil etməlidir. Maliyyələşdirmənin hər bir mərhələsinin sonunda və son hesabatda göstərilən bütün xərclər Sizin BÜDCƏDƏ göstərilən xərclərlə uyğun gəlməlidir. Layihədə göstərilən və ACİ-YF tərəfindən razılaşdırılan BÜDCƏDƏN kənara çıxma YALNIZ İcraçı Direktorun razılığı və icazəsi ilə ola bilər.

Büdcə xülasəsində Detallı büdcə və onun əsaslandırılması hissəsində daha geniş verilmiş bütün xərclər əks olunmalıdır. Onlar iki hissəyə bölünür. Nümunəni bu hissənin sonunda tapa bilərsiniz.

### *A. Xərclər*

Büdcənin bu hissəsi layihənin müvəffəqiyyətlə həyata keçirilməsi üçün vacib olan bütün xərcləri əks edirir .Sizin büdcədə layihənin bütün xərcləri qöstərilməlidir. «Diqər mənbələr» qrafasının ACİ-YF-dan tələb olunmuyan, diqər mənbələrdən daxil olan xərcləri əks etdirməlidir. «ACİ-YF-dan tələb olunan məbləğ» qrafasında ACİ-YF-dan tələb olunan xərcləri qöstərin.

### *B. Maliyyələşdirmə mənbələri*

Sizin layihənin donorlarının hər birinin payına gööstərin. Hər bir qrafada konkret XƏRCLƏR MADDƏSİ üzrə məbləğləri qeyd edin.

ACİ-YF-dan istədiyiniz məbləğ daxil olmaqla layihəyə aid olan maliyyə mənbələri haqqında ətraflı məlumat verin. Bu qrafadakı «cəmi « layinənin həyata keçirilməsi üçün tələb olunan məbləğlə uyğun qəlməlidir. Başqa maliyyə mənbələrin adları cədvəldən sonra qöstərilməlidir.

A. Büdcənin xulasəsi - numunə

| Xərclər maddəsi | Ümumi məbləğ | Digər mənbələr | ACİ-YF-dan tələb olunan məbləğ |
|---|---|---|---|
| 1) Əmək haqqı | | | |
| 2) Təchizat | | | |
| 3) Səfərlər | | | |
| 4) Ləvazimat | | | |
| 5) Digər birbaşa xərclər | | | |
| Cəmi | | | |

BÜDCƏNİN TƏFSİLATI VƏ ƏSASLANDIRILMASI.

Büdcənin xülasəsində göstərilən xərclərin hamısını ayrı bir cədvəldə göstərin.Bu xərclər büdcənin xülasəsində göstərilən hissəsinə uyğun qəlməlidir.Başqa mənbələri qöstərməyə unutmayın. Bu təlimatdan sonra gostərilən nümunələrə baxa bilərsiniz.

Unutmayın ki büdcənin təfsilatı və əsaslandırılması ekspertlərə Sizin layihənin qiymətləndirilməsi üçün vacibdir. Sizin layihəni qiymətləndirən ekspertlər layihənizi

## A. Əmək haqqı

Bu maddə layihədə işləyən şəxsləri nəzərdə tutmalıdır.

Bu maddəni əsaslandırarkən əməkdaşa verilən məbləğ göstərilməlidir. Həmçinin həmin əməkdaşın layihə üzrə vəzifəsi, ixtisas dərəcəsi, layihəyə həsr olunmuş iş vaxtının müddəti və onun layihə üzrə işin ümumi davamiyyəti qeyd olunmalıdır.

NÜMUNƏ

| Layihə üzrə vəzifəsi | Yekun əmək haqqı | Aylıq əmək haqqı | Tam və ya natamam iş günü | Ayların sayı | ACİ-YF-dan tələb olunan məbləğ | Digər mənbələr |
|---|---|---|---|---|---|---|
| Layihənin | | | | | | |
| Layihənin əaqələndiricisi | | | | | | |
| Cəmi | | | | | | |

## B. Avadanlıq

Verilən XƏRCLƏR MADDƏSİNƏ Siz kompüterlər, proqram təminatı və ofis avadanlığı kimi predmetlər daxil etməlisiniz.

Xahiş olunur, nəzərə alasınız ki, ACİ-YF Sizin layihəni həyata keçirmək etmək üçün ACİ-YF-nin vəsaitinə əldə edilmiş BÜTÜN avadanlığın sahibi hüququnu özündə saxlayır. Adları çəkilən BÜTÜN avadanlığın Taleyi Sizin layihənin başa çatdırılmasından sonra ayrıca, hər bir konkret halda həll olunacaq.

Dəyəri 1000 dollar və ondan yuxarı olan «Avadanlıq» XƏRCLƏR MADDƏSİNİN hər bir predmeti BÜDCƏNİN bu hissəsində fərdi olaraq əsaslandırılmalıdır.

NÜMUNƏ

| Avadanlığın növü | Tələb olunan miqdar | 1 vahidin qiyməti | Yekun | Digər mənbələr | ACİ-YF-dan tələb olunan məbləğ |
|---|---|---|---|---|---|
| Kompüter | 2 | 1000 | 2000 | 0 | 2000 |
| Cəmi | | | | | |

***Məsələn: Kompüterlər – İBM PS 486 markalı 2 kompüter Bakı Dövlət Universitetinin 15 tələbəsi tərəfindən baza məlumatları toplamaq və yeni statistika vərdişləri mənimsəmək üçün istifadə edilməlidir.***

## C. Səfərlər

Səfərlərə aid olan büdcə hissəsi yalnız şəhərdən kənar səfərlər: yaşayış, yemək, ezamiyyət, xərcləri və s.ilə əlaqədar olan bütün xərcləri əhatə etməlidir.

NÜMUNƏ

| Şəxslərin sayı | Harada n/haray a | 1 nəfərə | Günlərin sayı | 1 adamın yaşayışı üçün | Ezamiyyət xərcləri/ye mək | Yeku n | Digər mənbələr | ACİ-YF-dan tələb olunan məbləğ |
|---|---|---|---|---|---|---|---|---|
| ***2*** | Bakı-(Gəncə) | ***$38*** | ***2*** | ***$10*** | ***$10*** | ***$232*** | ***$100*** | ***$132*** |
| Cəmi | | | | | | | | |

***Biznes-Menecment üzrə mühazirələr oxumaq üçün Bakı Dövlət Universitetindən olan mühazihərilərin yol xərcini – iki baş üçün 2 biletin xərcini Təhsil Müdafiə Şurası ödəyir.***

## D. Məxaric materialları və dəftərxana ləvazimatı

Ləvazimat və dəftərxana malları aşağıdakiları birləşdirir: kağız, qələm, steyplerlər, kartric və s. Xahiş olunur, sizə hansı malın vacib olmasını təsvir edin və sizin layihənin yerinə yetirilməsi üçün onların lazım olmasını mütləq əsaslandırın.

NÜMUNƏ

| Adı | Sayı | 1 ildən qiyməti | Cəmi | Digər mənbələr | ACİ-YF-dan tələb olunan məbləğ |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

## E. Digər birbaşa xərclər

Siz buraya İctimai Əlagələr (PR), icarə, telefon, poçt xərcləri, pu təminatı nəşr, tərcümə, sığorta, kompüter proqram təminatı, kitab, dövrü mətbuat və s. kimi xərcləri daxil etməlisiniz.

PR sahəsində tələb olunacaq bütün növ xərcləri (məs. Mətbuat konfransları, buketlərin nəşri, tərcümə, dövrü mətbuat, video kassetləri, CD ROMlar (10 000 çox olan büdcə), televiziya verlişində iştirak və s.) daxil etməlisiniz.

Büdcəsi 10 000 ABŞ dollarından az olan layihənin ümumi layihə büdcəsinin 5 faizini və büdcəsib 10 000 ABŞ dollarından çox olan layihələrin isə ümumi layihə büdcəsinin 3 faizini layihə inkişafı (PR) məgsədlərinə yönədilməlidir.

Xahiş olunur, PR sahəsində Grant ərizəsinin tərtibi üçün goyulan tələbləri nzərə alasınız.

Görüşlərin keçirilməsi üçün lazım olan xərclər tam qeyd olunmalıdır. Sayın göstərilməsi məqsədə uyğundur.

Siz həmçinin ACİ-YF-dan tələb etdiyiniz məbləğin 2-3%ni təşkil edən nəzərdə tutulmamış xərcləri bu qrafaya daxil etməlisiniz.

NÜMUNƏ

| Xərclərin növü | Cəmi xərclər | Aylıq xərclər | Başqa mənbələr | ACİ-YF-dan tələb olunan məbləğ |
|---|---|---|---|---|
| PR sahəsi | | | | |
| Ofisin icarəsi | | | | |
| Telefon | | | | |
| Poçt xərcləri | | | | |
| Yerli səfərlər | | | | |
| Nəşr | | | | |
| Bank xərcləri | | | | |
| Nəzərdə tutullmayan xərclər | | | | |
| Cəmi | | | | |

***Məsələn. İcrənin qiyməti Ofisin icarəsi bir müddətinə 1 kv. Metri 5 dollardan olan 100 kv metr.(1 x 100 x$5=$500) və s.***